*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 112-117*

https://doi.org/10.62837/2024.10.112

**AYNURƏ CƏBİ qızı CƏBİYEVA**
**Azərbaycan Dillər Universiteti**
**Bakı ş., R.Behbudov küçəsi, 134**
**e-mail: jabiyevaaynura@gmail.com**

# ALİ MƏKTƏBLƏRDƏ FRANSIZ DİLİNİN KOMMUNİKATİVYÖNÜMLÜ TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏNİN PSİXOLOJİ ƏSASLARI

## XÜLASƏ

*Xarici dillərin, eləcə də fransız dilinin kommunikativyönümlü tədrisində dilöyrənənlərin İKT-dən istifadə zamanı psixoloji xüsusiyyətlərinin nəzərə alınması vacib hesab edilir. Burada əsas məsələ motivasiya amili ilə bağlıdır. Belə ki, hər bir dilöyrənmə və dilöyrətmə prosesində motivasiya amili mühüm rola malikdir. Bu zaman təhsilverənlərin öhdələrinə mühüm vəzifələr düşür. Onlar auditoriyalarda kommunikativyönümlü mühitin formalaşdırılmasında, dərs saatlarının maraqlı olmasında kommunikativ fəaliyyətlər həyata keçirməlidirlər.*

*Qeyd edək ki, həvəs, maraq motivasiyanın açarı hesab olunur. Təhsilverənlər daxili motivasiya mənbələrini xarici faktorlarla birləşdirərək, müsbət və faydalı strategiyaların auditoriyalara inteqrasiyasını təmin etməlidirlər. Onlar tələbələrin motiv və ehtiyaclarından xəbərdar olmalı, motivasiyaedici mühitin formalaşdırılmasında bilavasitə israrlı olmalıdırlar. Dilöyrənənlərin müstəqil olmaları da burada vacib hesab olunur. Bununla onlar məsuliyyətlərinin fərqində olurlar, qərar verməkdə cəsarət nümayiş etdirirlər.*

*Beləliklə, tədqiqatlar zamanı aydın olur ki, dilöyrənənlərin psixoloji xüsusiyyətlərinin nəzərə alınması fransız dilinin kommunikativyönümlü tədrisində İKT-dən istifadə zamanı vacib məsələdir.*

**Açar sözlər: İKT, motivasiya, nitq, kommunikasiya, dil**

Hamıya məlumdur ki, motivasiya dilöyrənmədə vacib amillərdən biridir. Xarici dilə xüsusi həvəsi olan dilöyrənənlər daha çox çalışırlar. Tədris maraqlı dil mühitində davam etdikdə onlar da uğura nail ola bilirlər. Burada imtahanların da müəyyən mənada rolu vardır. Belə ki, imtahanlar təhsilalanları addım-addım özlərinə inam yaratmağa sövq edir. Məhz bu baxımdan dilöyrənmədə, eləcə də fransız dilinin kommunikativ yönümlü tədrisində psixoloji amillərin yeri və rolu danılmazdır. Xüsusilə, İKT-dən istifadə zamanı bu məsələlər nəzərdə saxlanılmalıdır.

Bildiyimiz kimi, motivasiya amili bütün yaş dövrləri üçün eyni xarakterə malikdir. Belə ki, bütün yaş dövrlərində əgər təhsilalanlar daxili motivasiyaya malikdirlərsə müvəffəqiyyət əldə edəcəklər. Başqa sözlə, öyrənmə təcrübəsi əyləncəli, maraqlı və mənalı olarsa, bu haqda daha da əminliklə danışmaq olar. Dilöyrənənlərin ekstrinsik motivasiyası, yəni yaxşı nəticələrinə görə mükafatlandırılarsa, universitetə daxil olmaq arzusu olarsa, bu cür motivlər onlara dilöyrənmədə

xüsusilə faydalıdır.

Tədqiqatlar göstərir ki, valideynlərin təhsil alanlara dilöyrənməyə münasibətlərində böyük rolu vardır. Onların təhsilə münasibətləri bilavasitə özünü bu psixoloji amilin səviyyəsində, onun dərəcəsində büruzə verir. Əgər valideynin təhsilə, tədrisə münasibəti müsbətdirsə, çox böyük ehtimalla bu özünü dilöyrənənin münasibətində də aydın şəkildə göstərir.

Onu da qeyd edək ki, digər bacarıqlarda olduğu kimi motivasiya da inkişaf etdirilməlidir. Buraya İKT-nin yaratdığı geniş imkanlar da aid edilir.

Təhsilalanların motivasiya olunması üçün bəzi məqamları təqdim edirik:

1. Təhsilalanlara maraq, həvəs və müxtəlif kommunikativyönümlü, İKT əsaslı fəaliyyətləri həyata keçirməyə imkanlar yaratmaq lazımdır. Bu onlara dil "işi"ni evdə də maraqlı edəcəkdir. Onlara imtahanlara, testlərə hazırlaşmağa, yaradıcı olmağa, dil bacarıqlarını təbii stressdən azad şəkildə formalaşdırmağa yardımçı olacaqdır.

2. Öyrənmə fəaliyyətlərini düzgün səviyyədə həyata keçirmək lazımdır.

3. Təhsilalanlar məlumatları qəbul etməkdə fərqlilik nümayiş etdirirlər. Belə ki, onlardan bəziləri izahat və müzakirələri, debatları, fikir mübadilələrini, digərləri diaqram və şəkillər vasitəsilə informasiyanı, verilən bilikləri əldə etməyə üstünlük verirlər.

4. Seçimlər etmək də dilöyrənənlərin motivasiya sahələrinə həqiqi mənada müsbət təsirini göstərir. Bu onları daha çox işləməyə, əmək sərf etməyə həvəsləndirir, eyni zamanda daha çox yaradıcılıq emalına sövq edir. Bundan əlavə, bu onları öz şəxsi öyrənmə təcrübələrinə nəzarət etməyə, qərarlarında məsul olmağa da səsləyir. Burada daxili motivasiya olmasa bütün bu sadaladıqlarımız mümkün olmaz.

5. Hamıya məlumdur ki, təhsilalanlar etdikləri işləri daha mükəmməl şəkildə həyata keçirməyi və valideynlərinin onlarla fəxr etməsini arzulayır. Bu zaman onları uğur abu-havası yaratmaq üçün tərifləmək və risklər edərkən motivə etmək lazımdır.

6. Bu zaman valideyn övladının hər hansı bir fəaliyyət üzərində çalışarkən işinin kiçik bir fraqmentini videolaşdıra və bunu ona təqdim etməklə yeni təhsil sferasındakı növbəti maraqlı fəaliyyətlərə həvəs oyada bilər. Daha sonra hər iki və ya daha çox metodiki planda baş vermiş işlər tutuşdurulub müqayisə edilə bilər. Burada əsas fokus nöqtəsi təhsilalanın uğuru olmalıdır. Bu onlara təhsildə necə inkişaf etdiklərini göstərmək üçün ən aydın yoldur.

Motivasiya dilöyrənənlərin maraq, həvəs səviyyələrini həmişə yüksək saxlamaqda təhsilverənlərə kömək edir. İkinci dili öyrənən təhsilalanlarda müəllimlər tərəfindən motivasiyanın yaradılması əsas şərt kimi qarşıya qoyulmalıdır [4, s.201]. Motivasiyaedici mühitin yaradılmasında aşağıdakı bir neçə məsələləri diqqətə çatdırırıq:

1. ***Təhsilalanlara dilöyrənmənin vacibliyindən bəhs etmək.*** Aşağı səviyyədə maraq üçün ən güclü səbəb xarici dili öyrənərkən onların imtahandan keçmək məsələsindən başqa heç bir şey barədə düşünməmələridir. Bu zaman müəllimlər onları başa salmalı, düzgün strategiyalar müəyyənləşdirməli, dilin vacibliyindən bəhs edərək onun faydalı tərəflərini qeyd etməlidirlər. Bu həvəsi daha da artırmaq, inkişaf

etdirmək üçün maraqlı kitablar oxumaq, xarici dildə kitablardan ibarət rəngarəng kitabxana mühitinə sahib olmaq lazımdır. Müəllimlər müəyyən aspektləri, epizodları qeyd edərək, onlardan bəhs etməli, qalan hissəni isə təhsilalanların özlərinin oxumasını qeyd etməlidir. Burada mühitin görünüşü, xüsusilə vacib hesab edilir. Belə ki, müəllim mühitin rahat və tərtibat cəhətdən zövqlü olmasına, dostcasına əməkdaşlığın təmin olunmasına çalışmalıdır. Onların həvəsləri artıqca dil bacarıqları da inkişaf edəcəkdir [1, s.45].

2. ***Mədəni dialoqa həvəsləndirmək.*** Burada mədəni ünsiyyətə nail olmaq ən önəmli məsələlərdən hesab olunur. Bunun üçün təhsilverənlər dili öyrənilən xalqın mədəniyyətinə, insanlarına sağlam, dost münasibət aşılamalıdır. Onlara dili öyrənilən xalqın həyatını əks etdirən ədəbiyyat nümunələri təqdim etmək lazımdır.

3. ***Təhsilalanların xüsusi maraq və hobbilərindən xəbərdar olmaq.*** Burada təhsilverənlər tətil günləri üçün İKT əsaslı xüsusi fəaliyyət növləri axtarıb tapmalıdırlar. Bu zaman dilöyrənənlərin öz fikirləri, ideya və mövzuya baxış bucaqları da nəzərə alınmalıdır. Onlar bu ideyaları auditoriya ilə bölüşmək, fikir mübadiləsi etmək kimi məsələlərə sövq edilməlidirlər. Onların şəxsi həyatlarında maraqlı olan şeylərdən danışmağı onlardan xahiş edə bilərik. Bundan əlavə, sinif mühitini öz doğma məkanları kimi hiss etməyə onları həvəsləndirməliyik. Bu da onlarda sinfə olan marağı daha da artırmağa kömək edəcəkdir.

4. ***Təhsilalanların tapşırığı icra etməsinə yardım üçün körpü texnikalarından istifadə.*** "Scaffolding" dilöyrənmə prosesində təhsilalanların ehtiyaclarına fokuslandırılmış müdafiədir [3, s.112].

5. ***Tələbələrarası interaksiyaya həvəsləndirmək.*** Hər hansı bir işi icra etmə, yerinə yetirmə hissi dilöyrənənlər üçün ən böyük motivə olunma amilidir. Müəllimlər onları həmişə özünəinamlı olmaları, səriştə və bacarıqlarına görə təriflməlidirlər. Dil təhsilalanlar arasında əməkdaşlıq və ünsiyyət vasitəsilə öyrədildikdə daha səmərəli nəticələr əldə etmək olur. Onların müxtəlif İKT əsaslı kommunikativ fəaliyyətlərdə iştirakı ilə bağlı nümayiş etdirdikləri könüllülük və həvəs dilöyrənmədə sinif diskursunun keyfiyyətini yüksəltmək üçün mühüm imkan rolunu oynayır. Kiçik qrup fəaliyyətləri və cütlərlə iş onların özünəinam səviyyəsini artırır.

6. ***Təhsilalanları öz qısamüddətli məqsədlərinə çatmağa təşviq etmək.*** Bu zaman müəllim onların gözlədikləri tərzdə, yəni daha səmimi danışmalıdır. Öz məqsəd və planları olan dilöyrənənlər nailiyyət qazana bilərlər. Belə ki, onlar öz dil tələbkarlıqları ilə məqsədlərinə nail olmaqda özlərinə kömək edə bilərlər. Buradan aydın olur ki, məqsəd və gözləntiləri olmaq onların motivasiya səviyyələrinin yüksəlməsinə səbəb olur. Bu da dil səriştəsinin artması ilə nəticələnir.

7. ***Əlçatanlığı olan və layihə əsaslı fəaliyyətlərdən istifadə etmək.*** Bu cür fəaliyyətlərdən istifadə tədris prosesinə yeni rəng qatır, onu mənalı edir. Buraya təkanverici komponentlər və layihə əsaslı fəaliyyətlər daxildir ki, bunlar da

diløyrənənlərin şəxsi maraqları və mədəni mənsubiyyətlərinə hörmət fonunda həyata keçirilməlidir. Onu da qeyd edək ki, müəllimlərin əksəriyyəti eksperimentləri öz metodları ilə həyata keçirirlər. Onlardan bəziləri sinifdə musiqidən istifadə edir, birlikdə musiqilər oxuyur, lüğətə əsaslanaraq özləri mahnılar yaradırlar.

8. ***Təhsilalanları öz doğma dilində danışmağa həvəsləndirmək.*** Hətta dilöyrənənlər öz doğma dilində danışmağı belə təkmilləşdirmək istəyirsə buna həvəsləndirmək lazımdır. Çünki bu akademik fransız dilinin də mənimsəməsinə kömək edir. İntensiv olaraq dil modellərindən istifadə onların uğuruna yol açır.

9. ***Vaxtaşırı yoxlama və qiymətləndirmə.*** Tam öyrətmə və öyrənmə prosesi 3 fundamental və daxili seçilmiş aspektləri əhatə edir: *məqsədlər, öyrənmə fəaliyyətlərinin tədrisi və qiymətləndirmə.* Onu da qeyd edək ki, istənilən tədris fəaliyyətinin təbiətinə onun nəticələri baxımından hörmətlə yanaşmaq lazımdır. Qiymətləndirmə davamlı prosesdir və tədrislə paralel getməlidir.

Beləliklə, müəllimlər tədrisin bütün mərhələlərində diqqətli müşahidə və qısa qiymətləndirici suallarla uğura öz töhvələrini verə bilərlər. Onlar dilöyrənənlərə öz ideyalarını formalaşdırmağa məkan, fəza təqdim etməlidirlər.

10. ***Təhsilalanların səhvləri ilə məşğul olmaq.*** Xarici dilin öyrənilməsində ən birinci, əsas məsələ onların dildən istifadə etmələrini təmin etməkdir. Təhsilverənlər onların etdikləri səhvləri diqqətlə və həvəslə düzəltməlidirlər, daha doğrusu, onların özlərinin səhvləri üzərində çalışmalarına istiqamət verməlidirlər. Müəllim ən çox vacib səhfləri düzəltməlidir. O eyni zamanda səhvin dərəcəsini, həcmini müəyyənləşdirməlidir.

11. ***Cədvəldən istifadə.*** Cədvəldən, diaqramlardan, sxemlərdən və s. istifadə dilöyrənənlərə müxtəlif sözlərin qruplaşdırılmasında köməkçi rolunu öynayır.

Bütün yuxarıda deyilənlərdən belə qənaətə gəlirik ki, dilin mənimsənilməsində motivasiyanın yeri və rolu danılmazdır. Motivasiyasız dilöyrənən heç vaxt uzunmüddətli məqsədinə nail ola bilməz. Müəllimlər nəzərəçarpacaq dərəcədə dilöyrənənlərin motivasiyalarına təsir edə bilərlər. Bu əsas açar element kimi səciyyələndirilir. Bu da dilin mənimsənilməsində vacib amil kimi xarakterizə edilir. Həvəs, empatiya, antuziazm dilöyrənənlərin dilə həssaslığını artırır və müəllim – təhsilalan arasında sağlam münasibət formalaşdırılır.

Bundan əlavə, müəllimlərin əsas məqsədlərindən biri də dilöyrənənlərin müstəqil olmalarıdır. Belə ki, onlar bununla müəyyən məsuliyyətlər hiss edir, onun çəkisini anlayır, qərar verərkən təhlillər aparırlar. Bu həm sinif daxilində, həm də sinifdənkənar ola bilər. Lakin, onu da söyləmək yerinə düşərdi ki, təhsilalanların sərbəstliyi universal bacarıqdır və yüksək dəyərləndirilməlidir [2, s. 65].

Ümumiyyətlə, dil öyrənmədə uğur qazanmaq bu gün diqqət mərkəzində olan məsələdir. Təhsilalanların müstəqil və avtonom olmalarına yardımçı olmaq, sosial və müdafiə konteksti müəyyənləşdirmək avtonom-müdafiəçi və interaksiya baxımından çox faydalıdır. Təhsilalanlara öz seçimlərində təhsillə bağlı azadlıq verildikdə onlar

daha həvəsli və entuziazmla dolu olurlar. Bu da onlarda motivasiya sahələrinin genişlənməsini şərtləndirir. Təhsilverənlər arasında elə müəllimlərə rast gəlmək olar ki, onlar doğrudan da dilin mənimsədilməsində rast gəldikləri problemləri, başlıqları öz tələbələri ilə birlikdə həll etməyə üstünlük verirlər. Bu həm də böyük sosial indikator rolunu oynayır. Məsələlərin birgə həllində vacib şərt kimi meydana çıxır. Tapşırıqların tərtib edilməsində əməkdaşlığın dərəcəsi təhsilalanların marağı kimi qəbul edilir. Dilöyrənənlərin maraqlarının araşdırılması hipotezalı təcrübələri genişləndirmişdir. Kontekstyönümlü komponentlərlə dəyişiklik, kommunikativ fəaliyyətlərin hərəki variasiyası, tələbə entuziazmı bu işdə vacib amil kimi dəyərləndirilir. Məhz belə məqamda seçimləri kontekstə uyğun situasiyaları düzgün müəyyən etmək lazımdır. Özünü müəyyənləşdirmə nəzəriyyəsi həvəsin, marağın qurucu nəzəriyyəsi olub, tələbə muxtariyyətinin əsas dəyəri üzərində dayanır. Bununla bağlı, 3 vacib məsələ vardır ki, onlar *muxtariyyət vacibliyi, bacarıq vacibliyi, aid olma vacibliyidir*. İKT əsaslı tədris fəaliyyətində də bunlar öndə dayanır. Bu fundamental lazımlı hesab edilənlər dilöyrənənlərin inkişafına, əhval-ruhiyyəsinə özlərini ifadə etməsinə təsir edir. Sinifdə və ya auditoriyada təhsilalanların təcrübəsi o zaman faydalı və dəyərli olar ki, onlar İKT-dən istifadə zamanı təhsilverənlərdən dəstək alsınlar. Bunlar baş verdikdə onların müstəqilliyi üçün daxili mənəvi zənginləşmə baş verir, sinif müzakirələri ərzində onları kommunikativyönümlü fəaliyyətə sövq edir.

## ƏDƏBİYYAT

1. Kərimov F. Şifahi nitqin inkişafı yolları. B.: BSU, 2002, 139.
2. Исмаилова Д.А. Методика обучения диалогической речи современнего английского языка на начальных курсах языковых вузов (I-II курсы) Баку: Мутарджим, 2002, 312 с.
3. Dieuzeide Henri. Les nouvelles technologies : outils d’enseignement. Paris : Nathan, 1994, 247 p.
4. Souter C. and Atwell E. Corpus based computational Linguistics. London: 1993, 450 p.

**Джабиева Айнура Джаби кызы**

## Психологические основы использования информационно-коммуникативных технологий при коммуникативном методе обучения французскому языку в ВУЗ-ах.

## РЕЗЮМЕ

В процессе коммуникативного метода обучения иностранным языкам, а также французскому языку считается основным принципом принимать во внимание психологические особенности обучающихся при использовании информационно-коммуникативных технологий. Главный вопрос в данной статье связан с мотивационным фактором. Следовательно, фактор мотивации

играет важную роль в каждом процессе обучения. В настоящее время на педагогов возлагаются важные обязанности.

Следует отметить, что основой мотивации в данном процессе считаются энтузиазм и интерес. Педагогам следует сочетать внутренние источники мотивации с внешними факторами и интегрировать позитивные и заботливые стратегии в аудиторию. Они должны знать мотивы и потребности своих студентов и непосредственно настаивать на формировании мотивационной среды. Здесь также считается важной независимость студентов. При этом они осознают свою ответственность и проявляют смелость в принятии решений. Таким образом, в ходе исследования становится ясно, что учет психологических особенностей обучающихся является важным вопросом при использовании информационно-коммуникативных технологий при коммуникативном методе обучения французскому языку.

**Ключевые слова: ИКТ, мотивация, речь, коммуникация, язык**

**Jabiyeva Aynura Jabi kizi**

**Psychological foundations of the use of information and communication technologies in the communicative language teaching of French at the universities.**

**SUMMARY**

During the process of communicative language teaching of foreign languages, as well as the French language, it is considered the main principle to take into account the psychological characteristics of students when using information and communication technologies. The main question in this article is related to the motivational factor. Therefore, motivation factor plays an important role in every learning process. Nowadays, teachers have important responsibilities.

It should be noted that the basis of motivation in this process is considered to be enthusiasm and interest. Educators should combine internal sources of motivation with external factors and integrate positive and caring strategies into the classroom. They must know the motives and needs of their students and directly insist on the formation of a motivational environment. Student independence is also considered important here. At the same time, they are aware of their responsibility and show courage in making decisions. Thus, during the study it becomes clear that taking into account the psychological characteristics of students is an important issue when using information and communication technologies in the process of communicative language teaching of the French language.

**Key words: ICT, motivation, speech, communication, language**

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Camalova Gülbəniz Məzahim qızı tərəfindən çapa tövsiyə olunmuşdur**